Azərbaycan Respublikası Dövlət
Statistika Komitəsinin 2016-cı il
23 noyabr tarixli 19/07s nömrəli
sərəncamı ilə təsdiq edilmişdir

**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin
məxfi statistik məlumatların qorunması
sahəsində siyasəti**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən istifadəçilərə təqdim edilən statistik məlumatlar "Rəsmi statistika haqqında" Azərbaycan Respublikası Qanununun, BMT tərəfindən qəbul edilmiş rəsmi statistikanın 10 əsas prinsipinin, habelə Avropa Statistikasının Normalar Məcəlləsinin tələblərinə uyğun nəşr edilərək statistik bülleten, məcmuə, pres-reliz və s. formada yayılır, Komitənin veb səhifəsində vaxtlı-vaxtında yerləşdirilir. İstifadəçilərə təqdim edilən statistik məlumatlar respondentlərdən alınmış ilkin məlumatların (onların statistik məxfiliyinə zəmanət verilməklə) və statistik məqsədlər üçün istifadə edilən inzibati məlumatların əsasında hazırlanır.

"Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məxfi statistik məlumatlar rəsmi statistika materiallarının istehsalı üçün toplanan və birbaşa və ya dolayı yolla statistik vahidlərin tanınmasına və ilkin məlumatların aşkar olunmasına imkan verən məlumatlardır.

Statistik məxfilik geniş ictimaiyyət üçün nəşr edilən məlumatların toplanması, işlənməsi, təhlili, yayılması, saxlanması və istifadə edilməsi zamanı statistik vahidlərin tanınmasına imkan verən ilkin (fərdi) məlumatların konfidensiallığının qorunmasıdır və bu statistik vahidlərin inamının əldə edilməsi və saxlanması üçün vacib şərtdir.

Dövlət statistika orqanlarının əməkdaşları, vəzifəli şəxsləri və rəsmi statistika müşahidələrinin aparılmasına cəlb edilən şəxslər statistik məxfiliyin pozulmasına görə "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məsuliyyət daşıyırlar və məxfi məlumatları əks etdirən, yaxud onları açıqlayan rəsmi statistika materiallarını (yekun (ümumiləşdirilmiş) məlumatlar ən azı üç statistik vahidin məlumatlarını əhatə etmirsə və belə yekunlarda statistik vahidlərdən hər hansı birinin payı 85% - dən çoxdursa) ictimaiyyətə təqdim edə bilməzlər.

Respondentlər tərəfindən onlara aid məlumatların hər hansı bir məqsəd üçün istifadə olunmasına razılıq verilməmişdirsə, məxfi statistik məlumatlar "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq yalnız icmal rəsmi statistik materialların istehsalı və ya müstəsna hallarda statistik vahidin anonimliyi təmin edilməklə (tanınmasına imkan verən vasitələr ləğv edilməklə) elmi məqsədlər üçün istifadə edilə bilər.

Yuxarıda qeyd olunanları nəzərə alaraq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi:

- ictimai etimadın davamlılığı üçün Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun olaraq statistik məxfiliyə zəmanət verir;
- ilkin (fərdi) statistik məlumatların konfidensiallığının qorunması haqqında sənədlə dövlət statistika orqanlarının əməkdaşlarının, vəzifəli şəxslərinin və rəsmi statistika müşahidələrinin aparılmasına cəlb edilən şəxslərin üzərinə öhdəlik qoyur;

- əməkdaşların və cəlb edilmiş mütəxəssislərin statistik məxfiliyin qorunması mövzusunda məlumatlandırılması, eləcə də bu istiqamətdə bilik və bacarıqlarının artırılması üçün onlara mütəmadi seminarlar təşkil edir;
- statistik məxfiliyin qorunmasına dair beynəlxalq tələblərə və tövsiyələrə uyğunlaşdırılmış metodoloji sənədlər hazırlayır;
- statistik məxfiliyin qorunması sahəsində səmərəli idarəetmənin təmin edilməsi üçün müəyyən edilmiş qoruyucu mexanizmlərin təhlükəsizliyi və keyfiyyəti ilə əlaqədar davamlı təkmilləşdirmə tədbirlərini həyata keçirir.